

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 130 (21.282)

4 iyul 2015-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymətı 20 qəpik


*Elektron cəmiyyət*

## Naxçıvanda informasiya cəmiyyəti quruculuğu yeni müstəvidə

*Cəmiyyətin inkişafında sürət və yeniləşmə müasir dövrün ən əsas tələblərindəndir. Bu tələbatı ödəyə bilmək üçün isə yeni texnologiyaların imkanlarından idarəetmə proseslərində və informasiya mübadiləsində istifadə olunması, informasiya cəmiyyəti quruculuğunda mühüm mərhələ olan "Elektron hökumət" layihəsinin başa çatdırılması böyük əhəmiyyət kəsb edir.*

Demokratik dəyərlərə üstünlük verildiyi, insan amilinin önə çəkildiyi bir ölkə kimi Azərbaycan Respublikasının və onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında informasiya-kommunikasiya texnologiyalarının cəmiyyət idarəetməsinin bütün sahələrində sürətli tətbiqi bir inkişaf indeksi kimi artıq dünyanın diqqətini çəkməkdədir.

Ölkəmizin müasir sürətli inkişafı, xalqımızın müstəqil dövlət quruculuğunun müxtəlif pillələrində əldə etdiyi nailiyyətlər, hər şeydən əvvəl, Azərbaycan vətəndaşlarının rifahı naminə aparılan düzgün iqtisadi siyasətin nəticəsidir. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş, hələ keçən əsrin 70-ci illərindən başlayan hərtərəfli inkişafın ümumi mənzərəsinə baxdıqda görürük ki, bu gün haqqında danışdığımız bir çox məsələlər hələ o zamanlar böyük uzaqgörənliklə doğma Azərbaycanın gələcəyi naminə planlaşdırılmışdır. Bu siyasət həmçinin həmin dövrdə sözügedən sahənin – cəmiyyətin inkişafının müxtəlif sahələrində informasiya-kommunikasiya texnologiyalarının (İKT) tətbiqi istiqamətində də özünü göstərirdi. O zamanlar ulu öndər respublikamız üçün məhz elmtutumlu, dövrünə görə qabaqcıl hesab edilən texnologiyalara əsaslanan sahələrin yaradılmasına ciddi diqqət yetirir, Azərbaycanın ali təhsil ocaqlarında, habelə xaricdə və ittifaqın digər mərkəzi şəhərlərində elektronika, avtomatika və hesablama texnikası üzrə mütəxəssislər yetişdirilməsinə xüsusi fikir verir, elektron avadanlıq istehsal edən bir çox müəssisələrin yaradılmasına çalışırdı.

Bu addımlar müstəqillik illərində daha da qüvvətləndi. Yeniləşən Azərbaycanda cəmiyyətin lazımi informasiyalarla təchiz edilməsinin zəruriliyi artıq hamı tərəfindən qəbul olunur, İKT-nin inkişafının elm iqtisadiyyatında yeri aydın görünür. Ona görə də ölkəmizdə neft sahəsinə alternativ olan kənd təsərrüfatı və turizm ilə bərabər, İKT sektorunun da inkişaf etdirilməsi dövlətin iqtisadi siyasətinin vacib istiqamətlərindən biridir.



Bu məqsədlərə çatmaq üçün ümummilli lider Heydər Əliyevin 2003-cü il 17 fevral tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)" qəbul olunmuş, daha sonra Prezident İlham Əliyev tərəfindən "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı" (Elektron Azərbaycan)" təsdiq edilmişdir. Məhz bundan sonra ölkəmizdə və muxtar respublikamızda "Elektron hökumət"in yaradılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilmiş və artıq cəmiyyət həyatının mühüm sahələrində qarşıya çıxan yüzlərlə sayda müxtəlif idarəetmə məsələlərində ənənəvi qaydadan imtina edilərək elektron zəminə keçid təmin olunmuşdur.

Bəs "Elektron hökumət" çərçivəsində təklif olunan bu qədər xidmətlərin cəmiyyət üçün əhəmiyyəti nədən ibarətdir? Müasir dövrdə elektron informasiya resurslarına olan tələbat inkişafın elə bir mərhələsində başlayır ki, bu zaman insanlar təkcə qloballaşmanın yaratdığı iqtisadi, sosial, mədəni tələbatların ödənilməsi üçün deyil, eyni zamanda yaşadığı ölkənin əksər idarəetmə institutları ilə yaranan qarşılıqlı məsələlərin, öz gündəlik həyatlarının və ya fərdi sahibkarlıq qayğılarının həlli zamanı bu imkanlardan istifadə edə bilmə zərurəti duyurlar. Şübhəsiz, burada informasiya-kommunikasiya texnologiyalarının özünün çox sürətli inkişafı və onların müxtəlif sahələrdə tətbiq imkanlarının genişlənməsi də mühüm rol oynayır.

Bu gün Naxçıvan Muxtar Respublikasında müxtəlif idarəetmə qurumlarının 276 adda elektron xidmətləri təklif olunmaqdadır. İndi vətəndaşlar Naxçıvan Muxtar Respublikası Elektron Hökumət Portalına (*http://e-hokumet.nmr.az)* daxil olmaqla müxtəlif dövlət qurumlarına birbaşa elektron müraciət yollaya, öz şəxsi, vətəndaşlıq və biznes məsələlərinin həlli üzrə həmin təşkilatların internet vasitəsilə göstərdiyi xidmətlərdən saniyələr içində yararlana bilərlər. Bu gün muxtar respublika sakinləri bank hesabının açılmasını, müxtəlif fəaliyyət növləri üçün lisenziyanın alınmasını, müxtəlif xidmətlərinin onlayn ödənilməsini, əmtəə nişanının qeydiyyatdan keçirilməsini, pensiyaçılara məlumatların verilməsini internet üzərindən reallaşdırırlar. Bundan başqa, insanlar hərbi xidmətkeçmə haqqında arayışın, arxiv arayışlarının, arxiv sənədlərindən çıxarışların, arxiv sənədlərinin surətlərinin verilməsi üçün müraciətin və sənədlərin qəbulu, abituriyentlərin ərizələrinin onlayn qəbulu, sürücülük vəsiqəsinin verilməsi, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu, elektron vergi bəyannaməsinin qəbulu kimi çox sayda elektron xidmətlərdən istifadə edə bilirlər. Nəticə isə vətəndaşın və eləcə də dövlət qurumunda çalışan məmurların vaxtına qənaət olunması, uyğun əməliyyatları daha operativ, daha az xərclə reallaşdırmaq imkanının qazanılmasıdır. Bu isə modern cəmiyyət quruculuğunun və çevik idarəetmənin təmin edilməsinə, işin səmərəli təşkilinə öz müsbət təsirini göstərir.

Hər birimiz vaxt itkisinə yol vermədən lazımi məsələlərin tam, təhlükəsiz və qüsursuz həll olunmasına çalışırıq. Bunun üçün elektron informasiya mübadiləsi imkanlarını artıran infrastrukturun yaradılması və ona çıxışın təmin olunması daim dövlətin diqqət mərkəzindədir. Muxtar respublikamızda bu sahənin daha da inkişaf etdirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" 15 iyul 2011-ci il tarixli Fərmanının, 2012-ci il dekabr ayının 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında "Elektron hökumət" layihəsinin həyata keçirilməsi vəziyyəti və qarşıda duran vəzifələr"lə bağlı keçirilən müşavirənin mühüm əhəmiyyəti olmuşdur. Naxçıvan Muxtar Respublikasında elektron xidmətlərin təşkili, dövlət orqanlarının fəaliyyətində çevik idarəetmənin, şəffaflığın təmin olunması, informasiya-kommunikasiya texnologiyalarının tətbiqini nəzərdə tutan internet saytlarının yaradılması indi qarşıya qoyulmuş mühüm vəzifələrdəndir. Muxtar respublikamızda "Elektron hökumət" layihəsi infrastrukturu üzrə görülən işlərin həcmi, bütün yaşayış məntəqələrində internetə çıxışın təmin olunması, dövlət idarələrinin, təhsil müəssisələrinin yeni nəsil kompüter avadanlıqları ilə təchiz edilməsi, əhalinin kütləvi şəkildə elektron xidmətlərdən istifadə etməsinə yönəlmiş maarifləndirici tədbirlərin keçirilməsi qarşıya qoyulmuş bu məqsədlərə çatmaq üçün çox mühüm əhəmiyyət daşıyır. Bundan başqa, Naxçıvan Muxtar Respublikasında distant təhsil infrastrukturunun yaradılması, muzeylərlə təhsil müəssisələri arasında onlayn dərslərin təşkili bu sahədə yüksək inkişaf mərhələsi keçdiyimizdən xəbər verir.

Naxçıvanda artıq ənənə halını almış "Elektron Naxçıvan" konfranslarının keçirilməsi, bu vacib sahədə işlərin daha da təkmilləşdirilməsi dünya təcrübəsinin tətbiqi baxımından mühüm tədbirlərdəndir. Nəticədə, muxtar respublikamızda "Elektron hökumət" layihəsi üzrə görülmüş işlərin bəhrəsi artıq göz qabağındadır. Belə ki, təkcə Naxçıvanda keçirilən mühüm beynəlxalq tədbirlərin internetlə dünyanın istənilən yerindən canlı olaraq izlənilməsi bunun, bir növ, dünyaya nümayişidir.

Elektron texnologiyanın imkanları sonsuz olduğu kimi, "elektron cəmiyyət" quruculuğunda da perspektivlər genişdir. Buna nail ola bilmək üçün isə önümüzdə geniş fürsətlər, tətbiqini gözləyən çoxlu sahələr vardır. Şübhə yoxdur ki, yaradılmış şəraitdən və elektron resurslardan maksimum səmərə ilə istifadə edə biləcək kadrlarımızın hazırlanması və onların qüvvəsindən istifadə olunması ilə cəmiyyətin tam informasiyalaşdırılmasını uğurla başa çatdıracağıq. İndi buna bizim hər cür imkanımız vardır.

Əli CABBAROV

## Cari ilin ötən dövrü ərzində məşğulluq xidməti orqanlarında işsizlik statusu alan olmayıb

Muxtar respublikada əmək ehtiyatlarından daha səmərəli istifadə edərək əhalinin məşğulluğunu təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nda qarşıya qoyulan vəzifələr uğurla icra olunur.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidmətindən aldığımız məlumata görə, qeyri-məşğul əhalinin işlə təmin edilməsi üçün məşğulluq xidməti orqanları muxtar respublikada fəaliyyət göstərən müəssisə və təşkilatlardan boş iş yerləri (vakansiya) haqqında məlumatlar toplayır, məşğulluq xidmətinə müraciət edən işaxtaranların peşə və ixtisaslarına uyğun olaraq həmin iş yerlərinə göndərilməsini təmin edir. Cari ilin 6 ayı ərzində məşğulluq xidməti orqanlarına müraciət edən 1391 nəfər peşə və ixtisasına uyğun münasib işlə təmin edilib, sosial müdafiəyə xüsusi ehtiyacı olan 22 nəfər kvota yerlərinə göndərilib, 90 nəfər isə haqqödənilən ictimai işlərə cəlb olunub. Keçirilən əmək yarmarkalarında 332 nəfərə işə göndəriş verilib.

Gənclərin və qadınların məşğulluğunun təmin olunması diqqət mərkəzində saxlanılıb, nəticədə, qeyd olunan dövr ərzində işə düzələnlərin 536 nəfərini gənclər, 295 nəfərini isə qadınlar təşkil edib. Həmçinin işlə təmin olunanların 49 nəfəri məhdud fiziki imkanlı şəxs, 44 nəfəri hərbi xidmətdən yeni tərxis olunanlardır.

Məlumatda o da bildirilir ki, işaxtaran vətəndaşların müvəqqəti məşğulluğunu təmin etmək istiqamətində də işlər görülüb. "Əmək birjası" sektoru tərəfindən 157 nəfər müvəqqəti və mövsümi xarakterli işlərə göndərilib.

Əmək bazarının tələbinə müvafiq olaraq işaxtaranların peşə hazırlığının təşkili istiqamətində də tədbirlər həyata keçirilib. Qeyd olunan dövr ərzində Naxçıvan Regional Peşə Tədris Mərkəzində Qaz təsərrüfatının istismarı və təmiri üzrə nəzarətçi-çilingər, Elektrik montyoru, Traktorçu-maşınçı, Fotoqraf, Bərbər, Qadın bərbəri, Dərzi, Kompüter istifadəçisi və Xalçaçı peşələri üzrə kurslar təşkil edilib və bu kurslara 195 nəfər, eyni zamanda sağlamlıq imkanları məhdud şəxslərin sosial reabilitasiyası məqsədilə bu kateqoriyadan olan 74 nəfər cəlb edilib.

Cari ilin ötən altı ayı ərzində məşğulluq xidməti orqanlarında işsizlik statusu alan olmayıb.

Muxtar MƏMMƏDOV

## İstehlakçıların hüquqlarının qorunması diqqət mərkəzində saxlanılır

İqtisadiyyatın bütün sahələrində müşahidə olunan inkişaf meyilləri istehlakçıların hüquqlarının qorunması sahəsində də səylərin artırılmasını, bununla bağlı beynəlxalq təcrübənin öyrənilməsini, aidiyyəti dövlət orqanları, ictimai təşkilatlar, sahibkarlıq subyektləri və istehlakçılar arasında qarşılıqlı əlaqələrin genişləndirilməsini tələb edir. Məhz bu səbəbdən son dövrlər istehlakçıların hüquqlarının müdafiəsi ölkəmizdə, eyni zamanda muxtar respublikamızda aktuallıq kəsb edən məsələlərdən birinə çevrilmişdir. İstehlakçı hüquqlarının qorunmasına və sahibkarlığın inkişafına göstərilən diqqətin nəticəsidir ki, muxtar respublikamızda da bu sahədə mühüm addımlar atılır, daxili bazarın keyfiyyətli məhsullarla təminatına ciddi fikir verilir.



"İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətindən aldığımız məlumata görə, 2015-ci ilin 6 ayı ərzində müəssisədə 81 mal çeşidini əhatə edən 1121 halda mal nümunəsi laboratoriya analizindən keçirilmişdir. Aparılmış laboratoriya təhlilləri, əsasən, 870 yerli istehsal məhsullarını və 251 idxal məhsullarını əhatə etmişdir. Qeyd olunan dövrdə 529 halda hüquqi və 592 halda fiziki şəxslər tərəfindən daxil olmuş 1121 halda mal nümunələrində laboratoriya təhlilləri aparılarkən 1114 nümunənin keyfiyyət göstəricilərinin qüvvədə olan normativ-texniki sənədlərin tələblərinə cavab verdiyi, 7 halda mal nümunəsinin isə keyfiyyət göstəricilərinin aşağı olduğu müəyyən edilmişdir.

Normativ-texniki sənədlərin tələblərinə cavab verməyən məhsullarda nöqsanların aradan qaldırılması məqsədilə aidiyyəti sahibkarlıq subyektləri ilə maarifləndirici istiqamətdə işlər aparılmış və metodik köməkliklər göstərilmişdir.

Qeyd edək ki, Latviya Respublikasının beynəlxalq akkreditasiya orqanı olan Standartlaşdırma, Metrologiya və Akkreditasiya Mərkəzi ilə (LATAK) 2013-cü ildə bağlanmış müqaviləyə müvafiq olaraq "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin mərkəzi qida sınaq laboratoriyası İSO 17025 standartı üzrə beynəlxalq akkreditasiyadan keçmiş və T-492-00-2014 nömrəli sertifikat almışdır.

Səbuhi HƏSƏNOV

**Ölkəmizin regionlarında, o cümlədən Naxçıvanda elmin inkişaf etdirilməsi və elmi potensialın məqsədəuyğun yönləndirilməsi dövlətimizin ən ali məqsədlərindən biridir. Ulu öndər Heydər Əliyev Naxçıvan Muxtar Respublikasında elmi-tədqiqat qurumlarının fəaliyyətinin gücləndirilməsi, mövcud elmi potensialdan istifadə olunmasının səmərəliliyinin artırılması, Naxçıvanın tarixi, arxeologiyası, etnoqrafiyası və təbii sərvətlərinin öyrənilməsi üçün Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Naxçıvan Bölməsinin təsis edilməsi ilə bağlı müdrik qərar qəbul etmişdir.**



# Elmə göstərilən dövlət qayğısı Naxçıvanın hərtərəfli öyrənilməsinə şərait yaradıb

Dahi rəhbər Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin yaradılması ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirədə demişdir: ***“Vaxtilə Sovet İttifaqı yarananda, müttəfiq respublikalar yarananda, onların arasında sərhədlər qoyulanda Azərbaycan torpaqlarının bir qismi Ermənistana verilibdir və bunun nəticəsində də Naxçıvan Muxtar Respublikası arazicə Azərbaycanın əsas torpağından aralı düşübdür. Bunların hamısı Naxçıvanın çox ətraflı öyrənilməsini tələb edir”.*** Bu baxımdan Naxçıvan Muxtar Respublikasında elmə göstərilən qayğı bir tərəfdən elmi inkişaf etdirmək məqsədi daşıyırsa, digər tərəfdən Naxçıvan Muxtar Respublikasının hərtərəfli öyrənilməsini, onun həm xalqın həyat səviyyəsinə fayda verən yeraltı və yerüstü sərvətlərinin öyrənilməsini, həm də milli mənafe və beynəlxalq tanıtma əhəmiyyəti kəsb edən tarixinin, ədəbiyyatının, mədəniyyətinin və digər sahələrinin tədqiq edilməsini zərurətə çevirir.

AMEA Naxçıvan Bölməsi əməkdaşlarının digər elm və təhsil müəssisələrinin alimləri ilə birgə fəaliyyəti ayrı-ayrı elm sahələrinin inkişafına stimul yaratmış, inkişaf səviyyəsinə görə müxtəlif elm sahələrində Naxçıvan məktəblərinin formalaşmasına gətirib çıxarmışdır. Aparılan ciddi elmi tədqiqatlar Naxçıvanda ədəbiyyat, tarix, dilçilik, biologiya və başqa elm sahələrində məktəblərin formalaşmasına uğurlu töhfələr vermişdir. Ciddi elmi tədqiqatlar tarix elminin müxtəlif sahələrinin – arxeologiya, etnoqrafiya, müasir tarix sahələrinin inkişafına stimul vermişdir. Naxçıvanın tarixi və arxeologiyası sahəsində sanballı nəticələr əldə edilmiş, Naxçıvanın yaşayış tarixini 500-300 min il, şəhər mədəniyyətini 5 min il bundan əvvələ hesablaya biləcək faktlar üzə çıxarılmış, ən qədim yaşayış məskənləri və əmək alətləri, məişət və sənətkarlıq əşyaları və sair aşkarlanaraq dünya elminə təqdim olunmuşdur. Gəmiqaya abidəsində aparılan araşdırmalar, habelə Naxçıvandakı Ovçular təpəsi, Oğlanqala, Kültəpə və başqa ərazilərdə aparılmış arxeoloji qazıntılar zamanı əldə olunmuş elmi nəticələr Naxçıvanın tarixinə yeni səhifələr əlavə etmişdir. Bütün bu araşdırmaların nəticəsi olaraq AMEA Naxçıvan Bölməsinin alimləri tərəfindən çap olunan tədqiqat əsərləri və monoqrafiyalar, habelə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin təşkilatçılığı və Ali Məclis Sədrinin qayğısı ilə keçirilən “Uluslararası qaynaqlarda Naxçıvan”, “Nuh Peyğəmbər: Dünya tufanı və Naxçıvan”, “Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi”, “Naxçıvan: ilkin şəhər və Duzdağ”, “Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir” adlı beynəlxalq simpoziumlar, habelə Nuh Peyğəmbərin məzar yerinin tapılması və məzarüstü türbəsinin restavrasiya olunması bu sahədə əldə edilmiş ən böyük nailiyyətlərdəndir. Ali Məclis Sədrinin sərəncamı ilə hazırlanan “Naxçıvan tarixi” çoxcildliyinin birinci və ikinci cildlərinin nəşr edilməsi Naxçıvan tarixinin öyrənilməsi və təbliği baxımından böyük əhəmiyyət daşıyır. Bundan başqa, naxçıvanlı alimlərin və digər ölkələrdən – Amerika Birləşmiş Ştatları, Fransa, Türkiyə və başqa ölkələrdən qatılan elm adamlarının apardıqları ciddi tədqiqatların nəticəsi olaraq Naxçıvanda Duzdağ mədəniyyətinin aşkarlanmasını, dünyanın ən qədim duzçıxarma sənəti və mədəninin məhz Naxçıvanda olması faktının təsdiqini tapmasını düzgün elmi tədqiqatların nailiyyəti kimi razılıqla qeyd etməliyik.

Naxçıvanda ədəbi mühitin öyrənilməsi, folklor nümunələrinin toplanması, tədqiqi və nəşri baxımından ədəbiyyatşünaslıq və folklorşünaslıq elmləri diqqəti cəlb edən inkişaf yolu keçmişdir. Geniş tədqiqatlar sayəsində görkəmli publisist, alim, naşir, ictimai xadim Məhəmməd ağa Şahtaxtlının həyatı və yaradıcılığı ilə bağlı əsaslı materialların əldə edilməsi və çapı, böyük ustad Cəlil Məmmədquluzadənin həyatı və yaradıcılığı istiqamətində yeni tərcümeyi-hal və yaradıcılıq məhsullarının tapılması, yeni bədii əsərlərin nəşr edilməsi, görkəmli pedaqoq-yazıçı Məhəmməd Tağı Sidqi, Məmməd Səid Ordubadi və digər ədəbi şəxsiyyətlərlə bağlı maraqlı materialların aşkar edilməsi ədəbiyyatşünas alimlərin nailiyyətlərindəndir. Naxçıvan folklor mühiti ilə bağlı yeni elmi tədqiqatların aparılması, 3 cilddə “Naxçıvan folklor antologiyası” kitabının nəşr edilməsi folklorşünaslıq sahəsində əldə edilən nailiyyətlər kimi diqqəti cəlb edir.

Naxçıvan Muxtar Respublikasında Ali Məclis Sədrinin rəhbərliyi ilə həyata keçirilən iqtisadiyyatın və özəl sektorun inkişafı siyasəti elmə və elmi nəticələrə istinad etməklə bir tərəfdən elmlə iqtisadiyyatın, daha doğrusu, elmlə istehsalatın əlaqələndirilməsinə yol açmış, digər tərəfdən iqtisadi inkişafın elmə dayanıqlılığını təmin etmişdir. Bu baxımdan Naxçıvanın bioresursları ilə bağlı aparılan elmi tədqiqatları iqtisadiyyata böyük töhfə hesab etmək olar. Taxılçılığın inkişafı bölgəmiz üçün nə qədər əhəmiyyətlidirsə, o sahədə aparılan tədqiqatlar da bir o qədər genişmiqyaslıdır. Bu məqsədlə AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunda taxıl sortları ilə bağlı aparılan tədqiqatlar və əldə edilən uğurlu nəticələr düzgün qurulmuş elmi istiqamətdən xəbər verir. Həmçinin biomüxtəlifliyin tədqiqi istiqamətində həyata keçirilən tədbirlər muxtar respublikada reallaşdırılan bir sıra dövlət proqramlarının, o cümlədən ərzaq ehtiyatı yaradılması, meyvəçilik və tərəvəzçiliyin inkişafı və başqa bu kimi proqramların gerçəkləşdirilməsi işinə də öz töhfələrini verməkdədir.

Ali Məclis Sədrinin sərəncamları ilə Naxçıvanın tarixi, mədəni və digər abidələri qeydə alınmış, pasportlaşdırılmış, bunun elmi yekunu olaraq “Naxçıvan Abidələri Ensiklopediyası” adlı iki dildə (Azərbaycan və ingilis) sanballı kitab nəşr edilmişdir. Naxçıvanın elm adamlarının səyi ilə iki cilddə “Naxçıvan Ensiklopediyası”, “Naxçıvanın tarixi atlası”, “Naxçıvanın folklor antologiyası” (3 cilddə), “Azərbaycan xalçaları Naxçıvan qrupu”, “Naxçıvanın teatr salnaməsi”, “Naxçıvanın arxeoloji abidələri”, “Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan”, “Qədim Şərur”, “Naxçıvan və naxçıvanlılar”, “Nuh Peyğəmbər, Dünya tufanı və Naxçıvan” və başqa qiymətli əsərlər işıq üzü görmüşdür.

Dövlətimizin elmə göstərdiyi qayğı nəticəsində elm adamlarımız böyük uğurlara imza atmışlar. Ali Məclis Sədrinin göstərdiyi qayğı sayəsində AMEA Naxçıvan Bölməsinin elmi-texniki təminatı sahəsində yüksək uğurlara nail olunmuş, burada yeni avadanlıqlarla təchiz edilmiş laboratoriyalar yaradılmış, xüsusilə dünya kitabxanaları ilə bilavasitə keyfiyyətli əlaqəni təmin edən Elektron kitabxana qurulmuşdur.

*Bütün bunlar Azərbaycanda ulu öndər Heydər Əliyevin siyasətinin uğurla davam etdirilməsinin nəticəsidir. Bu gün ölkəmizin bütün regionlarının elmi cəhətdən dəqiqliklə öyrənilməsi elmin inkişaf strategiyasına uğurla xidmət edir.*

**Ramiz QASIMOV**
***filologiya üzrə fəlsəfə doktoru***

# “Məhəmməd Tağı Sidqi: Taleyi və sənəti” kitabının təqdimat mərasimi olub

*İyulun 3-də Naxçıvan Müəllimlər İnstitutunda “Məhəmməd Tağı Sidqi: Taleyi və sənəti” kitabının təqdimat mərasimi keçirilmişdir.*






Təqdimat mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov kitabın işıq üzü görməsi münasibətilə ziyalıları, muxtar respublika oxucularını təbrik etmişdir.

Qeyd olunmuşdur ki, görkəmli pedaqoqun 1892-ci ildə Ordubadda açdığı “Əxtər” (“Ulduz”) və 1894-cü ildə Naxçıvanda yaratdığı “Tərbiyə” məktəbləri Azərbaycanda milli və dünyəvi məktəbin genişlənməsinə, maarifçilik hərəkatının inkişafına mühüm töhfələr vermişdir. Bununla yanaşı, 1896-cı ildə Naxçıvan qəzasında ilk dəfə olaraq qız məktəbi açmışdır. XIX əsrin sonunda Naxçıvan kimi ucqar bir bölgədə, dindar bir yerdə qızlar üçün məktəb açmaq böyük hünər tələb edirdi. Naxçıvan din xadimlərinin, molla və müctəhidlərin təzyiq və hücumlarına baxmayaraq, Sidqi öz mütərəqqi fikirlərindən dönməmiş, qız məktəbinin açılmasına nail olmuşdur.

Görkəmli pedaqoq şagirdlərin müsbət əxlaqi keyfiyyətlərə və vərdişlərə yiyələnməsi məqsədilə imla mətnlərindən ibarət “Əxlaq nümunələri”, hekayələrdən ibarət “Qızlara hədiyyə”, coğrafi məlumatları sistemləşdirərək “Müxtəsər coğrafiya risaləsi” kimi mükəmməl elmi-pedaqoji dəyərə malik olan dərsliklər yazmışdır ki, bunlar da ictimai mühitin tədricən maariflənməsinə, yeni nəslin formalaşmasına təsir göstərmişdir. Sidqinin yeni üsullu məktəbləri Hüseyn Cavid, Məmməd Səid Ordubadi, Bəhruz Kəngərli kimi görkəmli şəxslər yetirmişdir.

Vurğulanmışdır ki, pedaqoji fəaliyyətlə yanaşı, bədii yaradıcılıqla da məşğul olan Sidqi uşaq, yeniyetmə və gənclər üçün tərbiyəvi əhəmiyyətli, ibrətamiz şeir və hekayələr yazmış, rus, ərəb və farscadan tərcümələr etmişdir.

Sidqinin yaradıcılığı və pedaqoji fəaliyyəti ilə bağlı məsələlər gənclərin təhsillənməsi, tərbiyələnməsi və psixoloji inkişafında böyük əhəmiyyət kəsb edir. Onun irsi dünən olduğu kimi, bu gün də aktual və müasirdir. Bu baxımdan Məhəmməd Tağı Sidqi irsinin öyrənilməsi və təbliği elmin və təhsilin xüsusi qayğı ilə əhatə olunduğu muxtar respublikamızda Ali Məclis Sədrinin diqqəti və himayəsi altındadır.

“Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamları ilə Məhəmməd Tağı Sidqinin 2004-cü ildə 150, 2014-cü ildə isə 160 illik yubileyləri qeyd olunmuş, həyatının və yaradıcılığının öyrənilməsi və təbliği məqsədilə görkəmli pedaqoqun doğulub boya-başa çatdığı Ordubad şəhərində ev-muzeyinin yaradılması qərara alınmışdır”, – deyən Rəhman Məmmədov bildirmişdir ki, bununla yanaşı, Məhəmməd Tağı Sidqinin adı Naxçıvan Dövlət Kukla Teatrına verilmiş, “Naxçıvan” jurnalının bir nömrəsi görkəmli pedaqoqun həyat və fəaliyyətinə həsr edilmiş, seçilmiş əsərləri çap olunmuşdur. Hazırda Ordubad şəhərində 1 nömrəli, Naxçıvan şəhərində isə 4 nömrəli tam orta məktəblər görkəmli pedaqoqun adını daşıyır.

Qeyd olunmuşdur ki, nəfis tərtibatla nəşr olunan “Məhəmməd Tağı Sidqi: Taleyi və sənəti” kitabı da görkəmli pedaqoqun irsinin öyrənilməsi və təbliği istiqamətində görülən işlərin davamıdır. 184 səhifədən ibarət olan kitabda maarifçi və şairin həyatı, taleyi, mühiti, ədəbi-ictimai və pedaqoji fəaliyyəti, həmçinin bədii yaradıcılığından bəhs edən məqalələr toplanmışdır ki, bu da görkəmli pedaqoqun həyatı və pedaqoji fəaliyyəti haqqında dolğun məlumat almağa imkan yaradır.

Sidqinin pedaqoji fəaliyyətinin bütün pedaqoqlar üçün bir nümunə olduğunu diqqətə çatdıran Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri bildirmişdir ki, bu baxımdan “Məhəmməd Tağı Sidqi: Taleyi və sənəti” kitabının təhsil müəssisələrinin müəllimləri, xüsusən də ixtisaslı müəllimlər hazırlayan Naxçıvan Müəllimlər İnstitutunun müəllim və tələbə heyəti üçün faydalı olacağına inanırıq.

Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənli qeyd etmişdir ki, pedaqoji görüşlərində məktəbi “cəhalət dərdinin dərmanı”, müəllimi isə “cəhalət bağının bağbanı” hesab edən görkəmli maarif xadiminin poetik öyüdnamələrində də elm ilə dünyanın abad olunmasının mümkünlüyündən, dünya dillərini öyrənməyin faydalarından, kamil insan olmaq qayəsindən geniş bəhs olunur. Oğlu Məmmədəli Sidqiyə yazılmış maarifçi şeirləri, sözün həqiqi mənasında, yeni nəslə xitab kimi səslənir.

Oruc Həsənli bu gün Naxçıvanda təhsilin inkişafına, tarixi keçmişin öyrənilməsinə xüsusi diqqət yetirildiyini bildirmişdir. Qeyd etmişdir ki, görkəmli maarifçi Sidqinin pedaqoji irsinin təbliğatçısı olacaq “Məhəmməd Tağı Sidqi: Taleyi və sənəti” kitabının ərsəyə gəlməsi də bu qayğının nəticəsidir. Buna görə bütün pedaqoqlar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova minnətdardırlar.

Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Piri Nağıyev çıxış edərək demişdir ki, Məhəmməd Tağı Sidqi mahir pedaqoq, məktəbşünas olaraq təlim və tərbiyəyə, dilimizə, ədəbiyyatımıza dair qiymətli əsərlər yazıb-yaratmışdır. Elə tək görkəmli yetirmələrinə görə Sidqinin “Tərbiyə” məktəbini Qori Müəllimlər Seminariyası ilə müqayisə etmək olar. Bu məktəbdəki yeni təlim-tərbiyə üsulları o dövr ziyalıları üçün böyük təcrübə məktəbi idi. Cəlil Məmmədquluzadənin dediyi kimi: “... müəllim və ədiblər üçün bura bir darülürfan hesab olunurdu”.

Nazir bildirmişdir ki, Məhəmməd Tağı Sidqinin 160 illik yubileyinin keçirilməsi, görkəmli pedaqoqun ev-muzeyinin yaradılması, bu gün təqdimatına toplaşdığımız kitabın işıq üzü görməsi Naxçıvan təhsilinə, mədəniyyətinə, Naxçıvanın yaradıcı ziyalılarına Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısının daha bir təzahürüdür.

Sonra çıxış edən Naxçıvan Dövlət Universitetinin müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru Kamal Camalov “Məhəmməd Tağı Sidqi: Taleyi və sənəti” kitabının pedaqoji və ədəbi-ictimai əhəmiyyətindən danışmışdır.

✍ **Rauf ƏLİYEV**

## Naxçıvan mətbuatının inkişafında xidmətləri olan jurnalistlərlə görüş keçirilmişdir

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2015-ci il iyunun 2-də "Azərbaycan milli mətbuatının 140 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalamışdır. Sərəncamdan irəli gələn vəzifələrin Naxçıvan Muxtar Respublikasında icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2015-ci il 10 iyun tarixli Sərəncamı ilə "Azərbaycan milli mətbuatının 140 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı" təsdiq edilmişdir. Tədbirlər Planında muxtar respublika mətbuatının inkişafında xidmətləri olan jurnalistlərlə görüşlərin keçirilməsi də nəzərdə tutulmuşdur.

İyulun 3-də "Şərq qapısı" qəzetinin redaksiyasında muxtar respublika mətbuatının inkişafında xidmətləri olan jurnalistlərdən Prezident təqaüdçüsü Səxavət Kəngərli, Azərbaycan Respublikasının Əməkdar jurnalisti Cəfərqulu Paşayev və Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Fərəc Fərəcovla görüş keçirilmişdir.

Naxçıvan Mətbuat Şurası üzvlərinin, "Şərq qapısı", şəhər və rayon qəzetləri əməkdaşlarının iştirak etdikləri tədbiri "Şərq qapısı" qəzetinin baş redaktoru Tural Səfərov açaraq bu cür tədbirlərin keçirilməsinin əhəmiyyətindən danışmışdır.

Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov "Naxçıvan mətbuatı dünən və bu gün" mövzusunda məruzə ilə çıxış etmişdir. Bildirilmişdir ki, 1875-ci ildə "Əkinçi" qəzeti ilə əsası qoyulan Azərbaycan milli mətbuatı şərəfli inkişaf yolu keçmiş, milli şüurun və özünüdərkin formalaşmasında bütöv bir səhifə açmışdır. "Əkinçi"dən sonra fəaliyyətə başlayan "Ziya", "Kəşkül", "Şərqi-Rus", "İrşad", "Həyat", "Molla Nəsrəddin" və bu kimi başqa nəşrlər "Əkinçi"nin yaratdığı ənənələri davam etdirmişlər. Naxçıvanda sovet hakimiyyətinin qurulmasından sonra "Naxrespublika", "Cavanlar həyatı", daha sonra "Füqəra səsi" adı ilə həyata vəsiqə alan və regionumuzun güzgüsünə çevrilən "Şərq qapısı" qəzeti də dövrümüzün salnaməsinin yazılmasında mühüm rol oynamışdır.



Rövşən Hüseynov qeyd etmişdir ki, Azərbaycan mətbuatının əsl inkişafı ümummilli liderimiz Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövrünə təsadüf edir. Dahi şəxsiyyətin rəhbərliyi ilə Azərbaycanda dövlət-mətbuat münasibətlərinin əsası qoyulmuş, ölkəmizdə söz və fikir azadlığı təmin edilmiş, jurnalistlərin fəaliyyəti üçün geniş imkanlar yaradılmışdır. Bu gün ulu öndərin əsasını qoyduğu mətbuata qayğı siyasəti ölkəmizdə, eləcə də onun Naxçıvan Muxtar Respublikasında uğurla həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2000-ci il mart ayının 29-da imzaladığı "Naxçıvan Muxtar Respublikasının dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətini yaxşılaşdırmaq tədbirləri haqqında" Sərəncamına əsasən muxtar respublikada fəaliyyət göstərən mətbuat orqanları normal iş şəraiti ilə təmin edilmiş, onların maddi-texniki bazaları gücləndirilmişdir. Bu gün "Şərq qapısı", şəhər və rayon qəzetləri yüksək poliqrafik keyfiyyətdə nəşr olunur, mətbuat işçilərinin əməkhaqları artırılır, onların sosial-məişət şəraiti yaxşılaşdırılır.

"Şərq qapısı" qəzetinin şöbə müdiri Sara Əzimova çıxışında demişdir ki, Azərbaycan milli mətbuatının 140 illik yubileyi ərəfəsində Naxçıvan mətbuatının inkişafında xidmətləri olan qocaman jurnalistlərlə görüşlərin keçirilməsinin mühüm əhəmiyyəti vardır. Çünki bu jurnalistlər müxtəlif dövrlərdə yaşayıb fəaliyyət göstərmələrindən asılı olmayaraq, milli mətbuatın inkişafında əsl fədakarlıq nümayiş etdirmişlər. Həmin jurnalistlərin mətbuat sahəsindəki fəaliyyəti bugünkü gənclər üçün örnəkdir.

Görüşdə Səxavət Kəngərli, Cəfərqulu Paşayev, Fərəc Fərəcov çıxış edərək Azərbaycan milli mətbuatının keçdiyi yoldan danışmış, çalışdıqları dövrlə bu günü müqayisə edərək muxtar respublikada mətbuata göstərilən dövlət qayğısının nümunə gücündə olduğunu bildirmişlər. Qocaman jurnalistlər yaradılan şəraitdən səmərəli istifadə edilməsinin vacibliyini bildirmiş, gənc jurnalistlərə gələcək fəaliyyətlərində uğurlar arzulamışlar.

Sonra tədbir çay süfrəsi arxasında davam etdirilmişdir.

**"Şərq qapısı"**

---

*(Əvvəli qəzetin 26 iyun 2015-ci il tarixli sayında)*

***“Şərq qapısı” qəzetinin tarixi ilə bağlı yazılarımızı davam etdiririk. Bugünkü yazıda qəzetin ötən əsrin 20-30-cu illərindəki fəaliyyətindən bəhs edəcəyik. Qısa zaman kəsiyində Naxçıvanda qəzetçilik ənənələrini formalaşdırmaq böyük zəhmət tələb edirdi. Belə ki, geniş oxucu kütləsinin rəğbətini qazanmaq üçün yüksəkkeyfiyyətli qəzet çıxarmaq lazım gəlirdi. Bunun üçün, ilk növbədə, qəzet tanıdılmalı idi. Ona görə də “Şərq qapısı” qəzetinin ilk vaxtlarda pulsuz olaraq camaata paylanması qərara alınır. Bir neçə ay belə davam edəndən sonra qəzet pulla satılmağa başlayır. Lakin qəzetə pul verənlər çox az olduğundan onun satışından əldə olunan vəsaitlə qəzeti idarə etmək çətinlik yaradırdı.***

## “Şərq qapısı” qəzeti ötən əsrin 20-30-cu illərində

1923-cü ildə Bakı şəhərindən Naxçıvana gətirilən daha mükəmməl mətbəə avadanlıqları sayəsində fasilələrlə çıxan qəzet müntəzəm nəşr edilir. Əvvəllər 100-150 nüsxədən çox çıxmayan qəzet bu dövrdən 500-700 nüsxə tirajla çap olunmağa başlayır. Hətta yazıçı və müxbirlərə yazı haqqı da verilir. Redaksiya tərəfindən müxbirlərə şəxsiyyəti bildirən şəhadətnamələr də təqdim olunur. Lakin bununla belə, qəzetin vəziyyəti qənaətbəxş sayılmır.

Yaradıcılıq yoluna “Şərq qapısı” qəzetindən başlamış, qəzetin redaktorlarından olan, yazıçı-jurnalist Məmmədəli Tarverdiyev qəzetin 60 illik yubiley nömrəsindəki məqaləsində yazırdı: *“Redaksiyanın və mətbəənin vəziyyəti ağır idi. Mətbəə avadanlığı çatışmır, işçi qüvvəsi azlıq edirdi. Qəzetin redaksiyası və mətbəəsi indi böyük ədibimiz Cəlil Məmmədquluzadənin abidəsi ucalan meydançanın qarşısındakı binada yerləşirdi. Redaksiya həmin binanın həyət eyvanının baş tərəfindəki kiçik otaqda, mətbəə isə zirzəmidə fəaliyyət göstərirdi. Redaksiyada cəmi beş nəfər – məsul redaktor, katib, müsəhhih, makinaçı və mühasib, mətbəədə isə üç nəfər – baş mürəttib, mürəttib və çapçı işləyirdi. Avadanlıq və kağız çatışmaması ucbatından qəzet həftədə bir dəfə vərəqə halında buraxılırdı. O, ayaqla işlədilən kiçik “Amerikanka” markalı maşında çap olunurdu. Qəzetdə dərc olunan məktubların əksəriyyəti, demək olar ki, redaksiya işçiləri tərəfindən hazırlanırdı. Çünki peşəkar və təcrübəli müxbirlər hələ yox idi. Qəzetin ümumi tirajı 400-500 nüsxədən artıq olmurdu. Qəzet hələ geniş oxucu kütləsini əhatə edə bilməmişdi. Lakin bütün bunlara baxmayaraq, qəzet ziyalılar tərəfindən izlənilir, onun hər yeni nömrəsi əldən-ələ gəzir, sevilə-sevilə oxunurdu”.*

1924-cü ilin ortalarından mərkəzi hökumət tərəfindən qəzetə maddi vəsait ayrılmasından sonra redaksiyanın maddi-texniki bazası gücləndirilir. Keçən əsrin 20-ci illərinin ikinci yarısından qəzet Naxçıvan Kommunist Partiyası Vilayət Komitəsinin orqanı kimi çıxmağa başlayır.

1925-ci il mart ayının 31-də qəzetin 100-cü nömrəsi işıq üzü görür. Qəzetin bu yubiley nömrəsi böyük təntənə ilə qeyd edilir. Yubileylə əlaqədar qəzet 1000 nüsxə ilə buraxılır. Həmin nömrədə dərc olunan baş yazıda deyilir: *“Əsrlərdən bəri maarif və mədəniyyətin parlaq ziyasından məhrum olaraq cəngavərlər, çəlladlar pəncəsində inləyən Naxçıvan tarixində bu gün göstərilməmiş bir bayram; gələcək nəslə şərəfli bir yadigar buraxacaq həman bu yadigar, Şərqin qapısında yaşayan Naxçıvan ölkəsinin türk əməkçiləri tərəfindən mövhumat və cəhalətə qarşı vurulan 100 ədəd maarif qurşunu və 100 nömrəyə varmış olan bir türk qəzetəsidir”.*

Yubileylə bağlı “Şərq qapısı” qəzeti redaksiyasına Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi və Komissarlar Şurası tərəfindən təbrik məktubları göndərilir. Xalq Komissarlar Şurasının sədri Həmid Sultanovun və Mərkəzi İcraiyyə Komitəsinin katibi Əliəkbər Quliyevin imzaladığı məktubda deyilir: *“Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi və Komissarlar Şurası tərəfindən qəzetin 100-cü nömrəsinin buraxılması münasibətilə əziz yubilyarı təbrik edirik. Mətbuat insanların həyatında həmişə böyük rol oynamışdır. Mətbuat zəhmətkeşlərin könlünü açmağa, onlara səadət yolunu göstərməyə çalışmaqdadır. Həqiqətdə “Şərq qapısı” qəzetəsi şuradar Şərqinin əhəmiyyətli qəzetlərindən olub, gələcəkdə bütün Şərq zəhmətkeşlərini öz tutduğu doğru yola cəlb edəcəyinə əminiz”.*

Qəzetin bu sayında xatirələr, təbriklər və şəkillər dərc olunmuşdur. “Qəzetimizin rəhbərləri” başlığı altında Həmid Sultanovun və Əhməd Haşımovun şəkilləri verilmişdir. Qəzetin məsul redaktoru Həmid Mahmudov və onun müavini Abbas Gülməmmədovun, katib Mahmudovun şəkilləri isə sol aşağı hissədə yerləşdirilmişdir. Qəzetdə onunla əməkdaşlıq edən müxbir və yazıçıların, mürəttiblərin şəkilləri çap olunmuşdur. Dərc olunan yazılarda qəzetin keçdiyi keşməkeşli və mübariz yol əks olunmuşdur. Qəzetin ilk mühərrirlərindən, korrektorlarından biri olan Lətif Hüseynzadənin həmin nömrədə dərc olunan “Naxçıvan və mətbuat” adlı yazısında “Füqəra səsi”nin nəşrindəki çətinliklərdən danışılır.

“Şərq qapısı” qəzetinin ilk müxbirləri sırasında Əkbər Abbasov, Məmmədəli Əsədullazadə, Seyid Səbri, Nemət Hüseynov, Lətif Hüseynzadə, Hüseyn Əsədov (Naxçıvan), Həsən Əlizadə, Məmməd Rəsulov, Bağır Qazıbəyov (Şahtaxtı), Rəhim Babayev (Qarabağlar), Qədim Qədimov (Sədərək), İbnyəmin Əlverdiyev, Məmməd Axundovun (Ordubad) imzalarına rast gəlmək olar.

Müxbirlərin sayını artırmaq, onların bilik səviyyəsini yüksəltmək üçün müntəzəm olaraq tədbirlər keçirilirmiş. Bu mənada, müxbirlərin konfranslarının keçirilməsi ənənəyə çevrilmişdi.

Tiflisdə nəşr olunan Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsi və Xalq Komissarlar Şurasının gündəlik orqanı olan “Yeni fikir” qəzetində Naxçıvanda keçirilən müxbir müşavirəsi haqqında belə məlumat verilir: “26-cı il 15 mayda Naxçıvan müxbirlərinin müşavirəsi oldu”.

Xəbərdə müşavirənin birinci məsələsi haqqında yoldaş Yusufovun məruzə etdiyi bildirilir və Naxçıvanda mətbuat tarixinə qısa nəzər salınaraq tarixi inkişaf yolu belə işıqlandırılır: *“Naxçıvan ölkəsində ancaq şuralar hökuməti bərpa olunduqdan sonra birinci dəfə ölkədə “Kommunist” namında 21-ci ildə qəzetə çıxmışdır. Bir çox səbəblərdən bu qəzetə qapandı. 22-ci ildə Ölkə Firqə Komitəsinin çalışması sayəsində “Füqəra səsi” namında qəzetə nəşr edilməyə başlandı. Bir müddət sonra bu da qapandı. Nəhayət, “Şərq qapısı” namında qəzetə çıxmağa başladı ki, bu günə kimi davam edir”.*

XX əsrin 20-ci illərinin ortalarından qəzetlə əməkdaşlıq edən müxbirlər, ziyalı və şairlərdən Məhəmməd Rəsizadə, Fəraməz Mahmudbəyov, Əli Həsənzadə, Xəlil Abbasov, Abbas Qasımov, Müzəffər Nəsirli, Əkbər Ənnağıyev, Əsgər Kəngərli, Bayram Mərdanlı, Əkbər Dadaşlı, Qurban Yusifzadə, Seyidtağı Seyidov, Xəlil Məhərrəmov, Hüseyn İsmayılov, Müseyib Mehdiyev, Qulam Babayev, Cabbar Haqverdiyev, Bəhlul Tarverdiyev, Nağı Novruzov, Hüseyn Vəkilov, İsmayıl Əylisli, Möhbalı Qasımov, Bünyamin Yusifzadə, hətta qadın müxbirlərdən Anna Xarlamova, Rübabə Sadiqova, Səkinə Rzalı, Xanım Mehdiyevanı misal göstərmək olar. Bütün bu imzalar və müxtəlif mövzulu məqalələr bir daha sübut edir ki, yaranmasından qısa zaman keçməsinə baxmayaraq, qəzet öz ətrafına yetərli yaradıcı heyət toplamış, gücünü səfərbər edə bilmişdir.

1931-ci ildə isə “Şərq qapısı” qəzeti özünün 10 illik yubileyini qeyd edir. Qəzetin 25 iyul 1931-ci il tarixli nömrəsi yubileyə həsr olunub. Bu münasibətlə Bakıda çıxan “Kommunist”, Tbilisidə çıxan “Zarya vostoka” qəzetləri, Gürcüstan K(b)P Mərkəzi Komitəsinin orqanı olan “Yeni kənd” qəzeti də “Şərq qapısı” qəzetinin 10 illik yubileyi münasibətilə təbrik məktubu göndərmiş və yaradıcı kollektivə uğurlar arzulamışlar.

1933-cü ilin 30 dekabr tarixi də qəzet üçün yaddaqalan günlərdən birinə çevrilir. Həmin gün qəzetin 1000-ci nömrəsi çapdan çıxır. Bu münasibətlə də yubiley nömrəsi nəşr olunur.

“Şərq qapısı” ilə bağlı öyrənilsə, hələ də qaranlıq qalan məqamlardan biri də 1937-1938-ci illərlə bağlıdır. Bu dövrdə ölkədə tüğyan edən repressiyalar dalğası bu qəzetin redaksiyasından da yan ötməyib. Məsələn, 1937-ci il 19 fevral tarixindən ilin sonunadək qəzetə 5 nəfər redaktorluq edib: Hüseyn Mahmudov, Şirəli Şirəliyev, Ə.Hacızadə, Musa İsmayılov, Xəlil Əminov.


SƏRQ QAPЬSЬ

*“Şərq qapısı” 8 may 1934-cü il*

“Şərq qapısı” qəzetinin əmrlər kitabında yazılmış 19 may 1937-ci il tarixli 24 №-li əmrdə deyilir: *“Məsul redaktor Şirəli Şirəliyevin üzərində ləkələndirici material olduğundan Oblast Partiya Komitəsinin qərarı ilə redaktorluq vəzifəsindən azad edilsin. Həmin tarixdən redaktorluq vəzifəsi müvəqqəti Hüseyn Mahmudova tapşırılsın”.*

Ə.Hacızadənin redaktorluq fəaliyyəti cəmi 13 gün çəkib. Xəlil Əminovun redaktorluq fəaliyyəti isə bir qədər uzun çəksə də, yaxşı sonluqla bitməyib. 1 dekabr 1938-ci il tarixdə o, Vilayət Partiya Komitəsinin qərarı ilə tutduğu vəzifədən azad olunub. Həmin tarixdən müvəqqəti redaktor təyin olunan Musa İsmayılov isə 1939-cu ilin 5 fevralında öz vəzifəsi ilə vidalaşıb. Bundan sonra redaktor təyin olunan Mustafa Quliyevin redaktorluğu 15 mart 1941-ci ilədək davam edib.

***Göründüyü kimi, qəzet yalnız Naxçıvanda maarif və mədəniyyətin, elmin inkişafına xidmət etməmiş, eyni zamanda yaradıcı insanların üzə çıxmasında, jurnalistika üzrə kadrların hazırlanmasında fundamental baza rolunu oynamışdır.***

*(Ardı var)*

**Surə SEYİD**
*filologiya üzrə fəlsəfə doktoru*


Batabat

## Kənd turizmi ilə bağlı maarifləndirici tədbir

*Naxçıvan Muxtar Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə Şahbuz rayonunun Biçənək kəndində kənd turizmini inkişaf etdirmək məqsədilə maarifləndirici tədbir keçirilib.*

Tədbiri giriş sözü ilə Şahbuz Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Sabiq İmanov açaraq keçirilən tədbirin əhəmiyyətindən danışıb.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Turizm şöbəsinin müdiri Gülbuta Babayeva tədbir iştirakçılarına kənd turizmi haqqında məlumat verib. Bildirilib ki, Biçənək kəndində bu sahəni inkişaf etdirmək üçün geniş imkanlar vardır və işin düzgün qurulması adət-ənənələrimizin, mədəniyyətimizin digər ölkələrdə təbliğ olunmasına şərait yarada bilər. Tədbir iştirakçılarına kənd turizmində evlərdə turistlərə göstəriləcək xidmətlər, bu xidmətlərin təxmini qiymətləri haqqında da məlumat verilib.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı Əkbər Novruzov Biçənək kəndinin coğrafiyası, tarixi, təbiət gözəllikləri, turistlərin burada qalması və istirahət etməsi üçün görülmüş tədbirlərdən danışıb.

Qeyd olunub ki, ekoloji cəhətdən təmiz havası, suyu olan kənddə bu gün hər cür yaşayış şəraiti yaradılıb. Kənd daimi qaz, su, elektrik enerjisi ilə təmin edilir.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallara cavab verilib.

**Əli RZAYEV**

## Naxçıvan Muxtar Respublikası üzrə 2015-ci ilin iyun ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/S | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri ( manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Şahbuz rayonu | 197923 | 19792 | 19892 | 100,5 |
| 2. | Ordubad rayonu | 495252 | 49525 | 49728 | 100,4 |
| 3. | Sədərək rayonu | 95632 | 9563 | 9601 | 100,4 |
| 4. | Culfa rayonu | 462822 | 46282 | 46432 | 100,3 |
| 5. | Naxçıvan şəhəri | 1139655 | 113966 | 114268 | 100,3 |
| 6. | Şərur rayonu | 673655 | 67366 | 67518 | 100,2 |
| 7. | Kəngərli rayonu | 263009 | 26301 | 26349 | 100,2 |
| 8. | Babək rayonu | 850442 | 85044 | 85145 | 100,1 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 1758193 | 175738 | 192652 | 109,6 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **5936583** | **593577** | **611585** | **103,0** |

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Agentliyi üzrə 2015-ci ilin iyun ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Şahbuz rayonu | 357 | 21,4 | 21,5 | 100,5 |
| 2. | Ordubad rayonu | 1162 | 69,7 | 70,0 | 100,4 |
| 3. | Kəngərli rayonu | 549 | 32,9 | 33,0 | 100,3 |
| 4. | Culfa rayonu | 1073 | 64,4 | 64,5 | 100,2 |
| 5. | Naxçıvan şəhəri | 3008 | 180,5 | 180,5 | 100,0 |
| 6. | Şərur rayonu | 1845 | 110,7 | 110,7 | 100,0 |
| 7. | Babək rayonu | 1675 | 100,5 | 100,5 | 100,0 |
| 8. | Sədərək rayonu | 320 | 19,2 | 19,2 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 28849 | 1731,0 | 1732,7 | 100,1 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **38838** | **2330,3** | **2332,6** | **100,1** |

**Qeyd:** İyun ayında texniki itki nəzərə alınmaqla daxil olan 38 milyon 838 min kilovat-saat elektrik enerjisinin dəyəri 2 milyon 330 min 300 manat olmuş, cəmi 2 milyon 332 min 600 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 100,1 faizini təşkil edir.

## Sağlamlığın qorunmasında çoxprofilli həkim briqadalarının rolu artır

Son illər səhiyyə infrastrukturunun yeniləşdirilməsi istiqamətində görülən işlər əhalinin hər bir təbəqəsini tibbi xidmətlə əhatə edən həkim briqadalarının fəaliyyətinə ciddi stimul vermiş, bu sahədə əsaslı irəliləyişlərə nail olunmuşdur. Çoxprofilli briqadaların təşkili yalnız bir məqsədə xidmət edir: əhalinin hər bir təbəqəsi, xüsusən ucqar dağ və sərhəd kəndlərində yaşayan insanlar keyfiyyətli tibbi xidmətlə əhatə olunsun, onlar şəhər, rayon mərkəzləri və digər uzaq məsafələr qət etmədən yerindəcə kütləvi şəkildə profilaktik tibbi müayinələrdən keçsin, vaxtında müalicəyə cəlb edilsinlər.

Bu vəzifələri yerinə yetirmək üçün həkim briqadaları cari ilin iyun ayında səmərəli fəaliyyət göstərmişlər. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi ilə yanaşı, Naxçıvan Muxtar Respublika Xəstəxanası, Naxçıvan Diaqnostika-Müalicə Mərkəzi, Göz Xəstəxanası, Mərkəzi Uşaq Xəstəxanası, dispanserlər, rayon mərkəzi xəstəxanaları nəzdində həkim briqadaları müasir tibbi avadanlıq, cihaz və aparatlar, laboratoriya ilə təchiz olunmuş, onların yerlərə gedişi qrafik əsasında tənzimlənmişdir. Müayinələr isə son illərin quruculuq ünvanlarından olan müasirtipli həkim ambulatoriyalarında, feldşer-mama məntəqələrində aparılmışdır.

Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkim briqadası Ordubad rayonunun Tivi kəndində 66 nəfəri tibbi müayinədən, o cümlədən 9 nəfəri elektrokardioqrafiya müayinəsindən keçirmiş, 19 nəfərdən ümumi qan analizi götürmüşdür.

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkim briqadası Culfa rayonunun Ərəfsə kəndində olmuş, 10 laboratoriya, 5 ultrasəs, 35 ginekoloji, 12 pediatrik müayinə aparmışdır.

Naxçıvan Muxtar Respublikası Kardioloji Mərkəzinin həkimləri tərəfindən Şərur rayonundakı Dərəkənddə 42 nəfər müayinə olunmuş, 2 nəfər dispanser qeydiyyatına alınmışdır. Göz Xəstəxanasının həkimləri isə bu kənddə və Böyükdüzdəki Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində 58 nəfəri tibbi müayinədən keçirmişlər.

Ağciyər Xəstəlikləri Dispanserinin həkim briqadası Kəngərli və Şahbuz Rayon Mərkəzi xəstəxanalarında 304 nəfəri profilaktik müayinədən keçirmiş, Kəngərli rayonunun Təzəkənd, Xıncab, Çalxanqala kəndlərində dispanser qeydiyyatında olan xəstələrin sayını dəqiqləşdirmişdir. Psixi Xəstəliklər Dispanseri də həmin kəndlərdə dispanserizasiya işləri aparmışdır.

Ay ərzində Şərur Rayon Mərkəzi Xəstəxanasının həkimləri Kosacan kəndi və Sədərək rayonunda, Babək Rayon Mərkəzi Xəstəxanasının həkim briqadası Naxışnərgiz, Ordubad Rayon Mərkəzi Xəstəxanasının tibb işçiləri Biləv və Parağa, Kəngərli Rayon Mərkəzi Xəstəxanasının həkimləri Qarabağlar, Culfa Rayon Mərkəzi Xəstəxanasının həkimləri Milax kəndlərində olmuşlar. Terapevt, pediatr, cərrah, kardioloq və digər yüksəkixtisaslı həkimlərlə təmsil olunan həkim briqadaları tərəfindən terapevtik, pediatrik, kardioloji, ginekoloji, cərrahi müayinələr aparılmışdır. Aşkar olunan ilkin xəstələrin müvafiq səhiyyə müəssisələrində dərin tibbi müayinələrə cəlb edilməsi məsləhət görülmüş, onlara ambulator kartlar açılmış, kənd üzrə dispanser qeydiyyatında duran xroniki xəstələrin sayı dəqiqləşdirilmişdir. 40-45 yaşlı əhalinin, ahılların dispanserizasiyasının icra vəziyyəti yoxlanılmış, mövsümi xəstəliklər, günvurma, ilan çalma, əqrəb sancma, uşaqların düzgün qidalanması, ana südünün əhəmiyyəti, qohumluq nikahının və zərərli vərdişlərin hamiləliyə ziyanı barədə səhiyyə maarifi işləri aparılmış, xəstəliklərin profilaktikası ilə bağlı tibbi məsləhətlər verilmişdir.

Eyni zamanda peyvəndlərin icra vəziyyəti, ambulator qəbul, evə çağırış, ailə, dispanser xəstələrin, hamilələrin və peyvəndlərin qeydiyyatı jurnalları yoxlanılmış, çatışmazlıqların aradan qaldırılması üçün lazımi tapşırıqlar verilmişdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## İdman obyektlərində dezinfeksiya işləri aparılıb

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Səhiyyə Nazirliyinin tədbirlər planına əsasən, Naxçıvan şəhərindəki idman zallarında dezinfeksiya işləri aparılıb. Bu tədbir ilk olaraq İlham Əliyev adına Olimpiya-İdman Kompleksi, Naxçıvan Muxtar Respublika Stadionu, Naxçıvan Şəhər Üzgüçülük Mərkəzi və Naxçıvan Şəhər Uşaq-gənclər idman məktəbinin idman zallarında həyata keçirilib.

Gənclər və İdman Nazirliyinin Kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimov bizimlə söhbətində bildirdi ki, bu cür tədbirlər mütəmadi olaraq həyata keçirilir. Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarında müxtəlif idman zalları fəaliyyət göstərir. Biz Səhiyyə Nazirliyi və rayonların Gigiyena və Epidemiologiya mərkəzləri ilə birgə tez-tez dərmanlama işləri aparırıq. Məqsəd isə idmançılarımızı yoluxucu xəstəliklərdən qorumaq və onların daha təmiz idman zallarında məşqlər etməsini təmin etməkdir.

Dezinfeksiya işləri ötən gün Şərur rayonunda da aparılıb. Belə ki, rayon Gənclər və İdman İdarəsi ilə Gigiyena və Epidemiologiya Mərkəzinin birgə həyata keçirdiyi dezinfeksiya işləri ilk olaraq Şərur Rayon Olimpiya-İdman Kompleksində aparılıb. Daha sonra Gənclər və İdman Nazirliyinin balansında olan idman zallarında dezinfeksiya işləri həyata keçirilib.

**Ceyhun MƏMMƏDOV**

## *Tətil günlərində işləmək istəyən tələbələrin nəzərinə!*

Muxtar respublikanın rayon (şəhər) Məşğulluq mərkəzləri tətil günlərində işləmək arzusunda olan tələbələrin xüsusi peşə hazırlığı tələb etməyən haqqıödənilən ictimai işlərə, mövsümi və digər müvəqqəti xarakterli işlərə göndərilməsini təmin edir.

Tətil günlərində işləmək arzusunda olan tələbələr yaşadıqları ərazinin Məşğulluq Mərkəzinə müraciət edə bilərlər.

***Əlaqə telefonu: 545-32-33***


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

*Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Rauf Əliyev

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 4020. Sifariş № 520